AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# Dayanıqlı Maliyyə üzrə Sorğu

# NƏTİCƏLƏRİ

Fevral 2025

**Mündəricat**

Sorğu haqqında .......... 3
1. Maliyyə sektoru üzrə icmal .......... 4
2. Bank sektoru .......... 7
3. Sığorta sektoru .......... 15
4. Kapital bazarı .......... 20
5. Nəticə və prioritetlər .......... 25

## Sorğu haqqında

Dayanıqlı maliyyə üzrə sorğunun məqsədi maliyyə institutlarının (bankların, sığorta şirkətlərinin və investisiya şirkətlərinin) dayanıqlı maliyyə və ekoloji, sosial və idarəetmə (ESİ) prinsipləri üzrə məlumatlığının ölçülməsi, bu istiqamətdə aparılan və ya aparılması planlaşdırılan tədbirlərin öyrənilməsi və məlumatların toplanması olub. 4 bölmədən və ümumilikdə 32 sualdan ibarət sorğunun nəticələri həm maliyyə bazarları üzrə ümumi, həm də bank, sığorta və investisiya şirkətləri üzrə ayrılıqda təhlil edilib. Hesabatın sonuncu hissəsində sorğu təhlilinin başlıca nəticələri və görüləcək növbəti tədbirlər əhatə olunub.

Sorğu illik əsasda keçirilir və məqsədi maliyyə sektorunda dayanıqlı maliyyə və ESİ prinsiplərinin tətbiqinin qiymətləndirilməsidir. Qiymətləndirmənin nəticələri Mərkəzi Bankın maliyyə sektorunda dayanıqlı maliyyənin inkişafına dair siyasətinin formalaşdırılmasında nəzərə alınır. Eyni zamanda, sorğunun nəticələri sektor iştirakçılarının məlumatlılığını artırmaq və bazardakı trendləri nümayiş etdirmək məqsədilə ictimaiyyətə açıqlanır.

## 1. Maliyyə sektoru üzrə icmal

Sorğuda 21 bank, 12 investisiya şirkəti və 16 sığorta şirkəti olmaqla cəmi 49 maliyyə institutu iştirak edib. Sorğu nəticələrinə əsasən, maliyyə institutlarının 80%-dən çoxu iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsinin əhəmiyyətini orta və yüksək əhəmiyətli kimi qiymətləndirir (Qrafik 1). Bu da, maliyyə sektorunda ESİ risklərinin əhəmiyyətinin anlaşılan olmasını və bu risklərlə bağlı sektorun məlumatlılığının artmasını göstərir.

**Qrafik 1. Maliyyə institutları tərəfindən maliyyə bazarlarında iqlim dəyişmələri və ESİ risklərinin idarəedilməsinin əhəmiyyətinin qiymətləndirilməsi**




**Eyni zamanda, iqlim dəyişiklikləri və ESİ risklərinin maliyyə sektoruna təsirləri sektor iştirakçıları tərəfindən fərqli dövrlər üzrə müxtəlif qiymətləndirilib**. Qısa müddətli (bir il) perspektivdə maliyyə institutlarının 73%-i bu təsirləri **aşağı** səviyyədə qiymətləndirib. Orta müddətli dövrdə isə iştirakçıların 53%-i təsirləri **orta** səviyyədə dəyərləndirib. Uzunmüddətli dövrdə isə maliyyə institutlarının 35%-i bu riskləri **yüksək** səviyyədə qiymətləndirərək təsirlərin daha əhəmiyyətli ola biləcəyini proqnozlaşdırır (Qrafik 2). Ötən ilin nəticələri ilə müqayisədə daha çox maliyyə institutu iqlim dəyişiklikləri və ESİ risklərinin uzunmüddətli perspektivdə sektora yüksək təsir göstərə biləcəyi qənaətindədir. Bu da maliyyə institutlarının iqlim və ESİ risklərinin maliyyə sabitliyinə təsirinin uzunmüddətli perspektivdə daha əhəmiyyətli olması qənaətində olduğunun göstəricisidir.

**Qrafik 2. Maliyyə institutlarının iqlim dəyişmələri və ESİ risklərinin təsirləri üzrə gözləntiləri (risk yoxdur,aşağı, orta, yüksək)**




**Dayanıqlı maliyyənin tətbiqi istiqamətində maliyyə institutlarının qarşılaşdığı əsas çətinliklər arasında kadr potensialının yetərsizliyi və kifayət qədər məlumatlılığın olmaması əvvəlki ildə olduğu kimi bu il də əsas maneə kimi qalmaqdadır.** Bununla yanaşı, dayanıqlı maliyyə məhsul və xidmətlərinə olan tələbin məhdudluğu da sektorun inkişafına mənfi təsir edən amillər sırasındadır (Qrafik 3). Ötən ilin nəticələrilə müqayisə etdikdə, nəzarət orqanının tələbinin olmaması artıq əksər maliyyə institutları tərəfindən əsas maneə kimi göstərilməyib. Bununla belə, insan resurslarının gücləndirilməsi və məlumatlılığın artırılması ehtiyacı dayanıqlı maliyyənin geniş tətbiqini təşviq etmək baxımından həlledici faktor olaraq qalmaqdadır.

**Qrafik 3. Dayanıqlı maliyyənin tətbiqi üzrə maliyyə institutları tərəfindən bildirilən əsas maneələr**




**Maliyyə sektorunda çalışan işçilərin 42%-ni qadınlar təşkil edir.** Son 12 ayda işəgötürülənlərin 37%-ni qadın əməkdaşlar təşkil edib. Bu göstəricilərlə yanaşı, vəzifələrin yuxarı pillələrində qadın təmsilçilərin iştirak faizi daha aşağı olmaqla, yuxarı idarəetmə səviyyəsində azalma göstərməkdədir.

**Bank sektoru Mərkəzi Bankın 2023-2026-cı illəri əhatə edən Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsinə uyğunlaşmaq istiqamətində ESİ prinsiplərini tətbiqində nəzərəçarpan irəliləyiş əldə edib.** Bankların təqribən 70%-dən çoxu Yol Xəritəsi üçün uyğunluq planları hazırlayaraq ESİ amillərinin kredit və qeyri-kredit məhsullarının yaradılması təcrübələrinə inteqrasiyasına başlayıb.

**Həmçinin bank sektoru dayanıqlılıqla bağlı şəffaflıq və hesabatlılıq sahəsində əhəmiyyətli irəliləyiş əldə etməkdədir**. Hesabatlılıq çərçivəsinin qurulması və gücləndirilməsi istiqamətində işlər davam etdirilir. ESİ prinsiplərinin idarəetmə və strategiya səviyyəsində inteqrasiyası getdikcə daha çox bankın gündəliyinə daxil olur.

**Sığorta sektoru ESİ prinsiplərinə uyğunlaşmanın ilkin mərhələsindədir.** Sorğuda iştirak etmiş 16 şirkətdən 12-si Mərkəzi Bankın Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsinə uyğunlaşdırılmış fəaliyyət planının olmadığını qeyd edib. Bir neçə sığorta şirkəti uzunmüddətli biznes

strategiyalarına ESİ amillərini inteqrasiya etsə də, ümumilikdə bu proses sektor üzrə geniş yayılmayıb.

**İnvestisiya şirkətlərinin ESİ prinsiplərinin təbiqi sahəsində irəliləyişi digər seqmentlərə nisbətən daha aşağıdır.** Yol Xəritəsinə uyğunluq planlarının hazırlanması və ESİ strategiyalarının formalaşdırılması sektorda geniş yayılmayıb.

**Ümumilikdə, maliyyə sektorunda ESİ prinsipləri və dayanıqlı maliyyə ilə bağlı ümumi məlumatlılıq artmaqdadır**. Bu əsasən bank sektorunun hesabınadır. Bəzi investisiya şirkətlərinin dayanıqlılıqla bağlı qiymətli kağızların emissiyasına maraq göstərməsi bu istiqamətdə ilkin təşəbbüslərin formalaşdığını göstərir. Sığorta sektorunda da dayanıqlı maliyyə istiqamətində bir sıra təşəbbüslər müşahidə olunsa da, bu sahədə işlərin intensivləşdirilməsinə ehtiyac vardır. Dayanıqlı maliyyə ekosisteminin tam formalaşması üçün bütün sektor iştirakçılarının bu prosesə daha fəal şəkildə inteqrasiyası vacibdir.

# 2. Bank sektoru

## 2.1 Biznes strategiyası üzrə

**Sorğuda iştirak etmiş 21 bankdan 15-i Mərkəzi Bankın Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsində nəzərdə tutulan fəaliyyətlərin icrası ilə fəaliyyət planına malikdir.** Bununla yanaşı, digər banklar isə 2025-ci il ərzində belə bir plan hazırlayacağını bəyan edib.

**Bankların əksəriyyətində ESİ amilləri kredit məhsullarının yaradılması üzrə qərarvermə proseslərinə inteqrasiya edilib.** Bundan əlavə, qeyri-kredit məhsullarının yaradılması, xəzinədarlıq və investisiya məhsulları üzrə ESİ amillərinin qərarvermə proseslərinə daxil edilməsinə rast gəlinir. 7 bank ESİ faktorlarını qərarvermə proseslərinə inteqrasiya etmədiyini bildirib (Qrafik 4).

**Qrafik 4. Bankların ESİ faktorlarını qərarvermə proseslərinə inteqrasiyası**




**Bankların 43%-i iqtisadi inklüzivlik, əlverişli mənzil təminatı və gender bərabərliyi kimi sosial layihələrə yönəlmiş məhsulları təqdim edir.** Bununla yanaşı, bankların 57%-i bu istiqamətdə fəaliyyətlərini planlaşdırdıqlarını qeyd edib. Bu, sosial məsuliyyətin bank sektorunda getdikcə daha geniş miqyasda tətbiq olunduğunu göstərir. Lakin ekoloji istiqamətlərdə – enerjiyə qənaət və alternativ enerji (24%), karbon emissiyalarının azaldılması (24%), dayanıqlı kənd təsərrüfatı məhsulları (29%) və su ehtiyatlarının səmərəli istifadəsi (19%) üzrə təqdim olunan maliyyə məhsullarının məhdudluğu diqqət çəkir. Ümumilikdə, hazırkı mənzərə ekoloji məhsul və xidmətlərə tələbin aşağı olduğunu və bu istiqamətdə ekoloji layihələrin təşviqinin zəruri olduğunu göstərir (Qrafik 5).

**Qrafik 5. Bankların ESİ faktorlarını daxil etdiyi məhsul sahələri**




**Dayanıqlı məhsullara dair stimullaşdırıcı differensiasiya hazırda sektorda məhdud şəkildə tətbiq olunur.** Respondentlərin 48%-i faiz şərtlərinə, 19%-i isə qeyri-faiz şərtlərinə endirim tətbiq etdiyini qeyd edir. Həmçinin bir çox bank hibrid və elektrik avtomobillərin kreditləşdirilməsinə dair faiz endirimlərini əsas stimullaşdırıcı mexanizm kimi təqdim edib.

**Bankların 70%-dən çoxu dayanıqlı maliyyə istiqamətində beynəlxalq təşkilatlarla müxtəlif istiqamətdə əməkdaşlığa başlayıb.** Bu əməkdaşlıqda əsas rolu çoxtərəfli inkişaf bankları oynamaqdadır. Bununla yanaşı, məsləhətləşmələr və təlimlər üzrə qlobal şirkətlərlə əməkdaşlığın da artdığı müşahidə olunur. İqlim dəyişiklikləri ilə mübarizə və dayanıqlı inkişaf məqsədləri üçün hazırda 4 bank tərəfindən beynəlxalq fondlardan vəsaitlərin cəlbinə başlanılıb. Bu təşəbbüslər dayanıqlı maliyyə sahəsində beynəlxalq inteqrasiyanın və sektorun inkişaf perspektivlərinin mövcudluğunu göstərir.

**Resurslardan səmərəli istifadə bir çox bank tərəfindən strateji yanaşmada nəzərə alınıb**. Respondentlərin əksəriyyəti öz fəaliyyətləri zamanı enerji, su və kağız istifadəsinə qənaət məsələlərini prioritet olaraq müəyyən edib. Bu nəticələr bankların fəaliyyətlərində dayanıqlılıq prinsiplərinə uyğun resurs idarəçiliyinə diqqət yetirdiyini göstərir.

## 2.2 Korporativ idarəetmə üzrə

**Banklarda ESİ prinsiplərinin korporativ idarəetməyə inteqrasiya edilməsində mühüm irəliləyişlər mövcuddur.** Belə ki, bankların 52%-i İdarə Heyəti səviyyəsində ESİ məsələləri üzrə cavabdeh şəxsləri təyin edib. Bankların 43%-də ESİ üzrə məsul struktur bölmə yaradılıb, 38%-də isə müxtəlif struktur bölmələrin əməkdaşlarından ibarət işçi qrupları formalaşdırılıb. (Qrafik 6).

**Qrafik 6. Bank sektorunda ESİ və dayanıqlılıq üzrə fəaliyyətin təşkilati struktura inteqrasiyası.**




**Bankların Müşahidə Şurası (MŞ) səviyyəsində dayanıqlı maliyyə və ESİ risklərinin idarə edilməsi üzrə müəyyən irəliləyişlər mövcuddur.** Belə ki, 10 bank MŞ tərəfindən dayanıqlı maliyyə investisiyalarının həyata keçirilməsi, 12 bank iqlim dəyişiklikləri və ESİ risklərinin idarə edilməsi üçün müvafiq vəzifə və səlahiyyət bölgüsü müəyyənləşdirib. Maliyyə institutlarının əksəriyyəti tərəfindən iqlim dəyişiklikləri, ESİ risklərinin idarə edilməsi və dayanıqlı maliyyə alətləri üzrə ixtisaslı insan resurslarının inkişafı üçün təlim-təhsil proqramları tətbiq edilməsinə başlanılıb. Belə ki, respondentlərin 15-i bu istiqamətdə proqramlar müəyyən etdiyini bildirib. Bununla belə, MŞ üzvlərinin iqlim dəyişiklikləri və ESİ riskləri üzrə təlimlərdə iştirakı məhduddur.

**Banklar ESİ faktorlarını müxtəlif istiqamətlər üzrə daxili qaydalarına inteqrasiya edib.** Ən çox qeyd edilən istiqamətlər arasında tövsiyə edilməyən fəaliyyətlər üzrə qaydalar (9 bank), etik davranış qaydaları (8 bank), mükafatlandırma (4 bank) və satınalma siyasəti (4 bank) yer alır. Bundan əlavə, bəzi banklar ESİ faktorlarını kreditləşmə qərarlarının verilməsi və

korporativ sosial məsuliyyət siyasətinin formalaşdırılması proseslərinə də inteqrasiya etdiklərini bildiriblər (Qrafik 7). Ümumilikdə, ESİ prinsiplərinin müxtəlif daxili siyasətlərə inteqrasiyası sahəsində mühüm addımlar atılsa da, sektorun daha geniş miqyasda bu prinsipləri tətbiq etməsinə ehtiyac var.

**Qrafik 7. Bankların ESİ faktorlarını daxili qaydalarına inteqrasiyası**




**Bank sektorunda qadınların ümumi işçi sayında və son 12 ay ərzində işəgötürülənlər statistikasında ötən ilə nisbətən əhəmiyyətli dəyişiklik müşahidə edilmir.** Belə ki, qadınlar ümumi işçi heyətinin 39%-ni, son 12 ayda işə qəbul olunanların isə 34%-ni təşkil edir. Müqayisə üçün qeyd edək ki, keçən il ümumi işçi sayında qadınların payı 38% olub. Rəhbərlik səviyyəsində qadınların təmsilçiliyi daha aşağıdır. Departament və şöbə rəhbərləri arasında qadınların payı 21%, MŞ və İdarə Heyəti (İH) üzvləri arasında isə bu göstərici müvafiq olaraq 9% və 11%-dir. Gender müxtəlifliyinin nəzərə alınması ilə bağlı daxili tələblər yalnız 8 bankın sənədlərində əks olunmuşdur ki, bu da rəhbərlik səviyyəsində gender bərabərliyinin təşviqi üçün əlavə addımların zəruriliyini göstərir (Qrafik 8).

**Qrafik 8. Banklarda qadın əməkdaşların təmsilçiliyi**




2025-ci il üzrə daxili audit planları ilə bağlı verilən suala cavablar göstərir ki, **bankların bir qismi ESİ prinsiplərinin həyata keçirilməsi və hədəflərin icrasının monitorinqi məqsədilə daxili audit funksiyasını gücləndirməyə başlayıb.** Belə ki, 12 bank ESİ məsələlərini daxili audit planlarına daxil etdiyini qeyd edib. Bu, ESİ prinsiplərinin təşkilati idarəetməyə inteqrasiyası istiqamətində irəliləyişin göstəricisidir.

## 2.3 Risk idarəetməsi üzrə

**ESİ faktorlarının risklərin idarə edilməsi prosesinə inteqrasiyası istiqamətində bir neçə bank tərəfindən fiziki və keçid risklərinin müəyyənləşdirilməsi, həmçinin keçid risklərinə həssas iqtisadi sektorların siyahısının müəyyənləşdirilməsi təcrübələrinə rast gəlinir.** 5 bank fiziki riskləri və 6 bank keçid risklərinin potensial təsirlərini, həmçinin keçid risklərinə məruz qala biləcək iqtisadi sektorların siyahısını müəyyənləşdirib. Bu təsnifat çərçivəsində əsasən enerji, nəqliyyat və logistika sektorları ön plana çıxıb. Digər tərəfdən, 15 bank bu sahədə hər hansı təsnifatın hələlik mövcud olmadığını, lakin gələcəkdə belə bir qiymətləndirmənin aparılmasını planlaşdırdığını bildirib. (Qrafik 9).

**Qrafik 9.İqlim risklərinə həssas iqtisadi sektorların müəyyənləşdirilməsi**




**Fiziki və keçid risklərinin stres-test çərçivəsinə inteqrasiyasnını hal-hazırda məhdud səviyyədədir.** Yalnız 2 bank keçid risklərinin stres-test çərçivəsinə inteqrasiya edildiyini bildirib. Sorğuda iştirak edən bankların əksəriyyəti bu istiqamətdə fəaliyyətlərini cari ildə (2025-ci ildə) planladığını qeyd edib. Eyni zamanda, yalnız 2 bankda fiziki və keçid riskləri üzrə limitlərin müəyyən edilməsi təcrübəsinə rast gəlinir.

**Bir sıra banklarda ESİ risklərinin idarə edilməsi üzrə siyasət və proseduralar mövcuddur**. Banklar tərəfindən ESİ riskləri üzrə qiymətləndirmə və idarəetmə təlimatı, tədbirlər planı və monitorinq şablonu kimi sənədlərin mövcudluğu qeyd edilmişdir. Bir sıra banklarda bu kimi siyasət və prosedurların çatışmadığı müəyyən olunub. (Qrafik 10).

**Qrafik 10. Siyasət və proseduralar.**



## 2.4 Hesabatlılıq üzrə

Bankların yarısı **ESİ strategiyaları və dayanıqlılıq üzrə fəaliyyətlərini hesabat şəkilində açıqlayır**. Bu banklar əsasən ESİ hesabatlarını maraqlı tərəflər üçün və dayanıqlılıq hesabatları vasitəsilə təqdim edirlər. Sorğuda iştirak edən bankların təqribən yarısı isə ESİ strategiyaları, öhdəlikləri və Əsas fəaliyyət göstəriciləri üzrə irəliləyişlər barədə açıqlama təqdim etmir (Qrafik 11).

**Qrafik 11. ESİ Strategiyası və fəaliyyətin açıqlanması vasitələri.**




**Bank sektorunda istixana qazlarının (İQ) azaldılması və resurs səmərəliliyi üzrə müəyyən edilmiş və ictimaiyyətə açıqlanmış hədəflər hələ də geniş yayılmayıb**. Yalnız 5 bank 1 və 2-ci dərəcəli İQ emissiyalarını ölçüldüyünü və açıqladığını bildirib. 3-cü dərəcəli İQ emissiyalarını ölçülməsinə yalnız 1 bankda rast gəlinir. Bununla belə, 10 bank növbəti dövrdə karbon emissiyalarını ölçməyi və bu istiqamətdə fəaliyyətlərini planlaşdırdıqlarını bildirib.

# 3. Sığorta sektoru

## 3.1 Biznes strategiyası üzrə

**Sığorta sektorunda dayanıqlı maliyyə prinsipləri və ESİ faktorlarının fəaliyyətlərə inteqrasiyası məhdud şəkildə həyata keçirilib**. Mərkəzi Bankın Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi ilə uyğunlaşma baxımından yalnız 1 sığorta şirkəti müvafiq plana malikdir. Sığorta şirkətləri arasında dayanıqlı maliyyə prinsiplərin tətbiqi ilə bağlı əsas maneə kimi kifayət qədər məlumatlılığın olmaması və kadr potensialının yetərsizliyi ön plana çıxıb. Bundan əlavə, dayanıqlı maliyyə məhsul və xidmətlərinə tələbin məhdud olması və bu cür fəaliyyətlərin rentabelli olmaması da digər çətinliklər arasında qeyd edilib (Qrafik 12).

**Qrafik 12. Dayanıqlı maliyyənin tətbiqi üzrə sığorta şirkətləri tərəfindən bildirilən əsas maneələr**




**Sığorta sektorunda ESİ amillərinin uzunmüddətli biznes strategiyasına və qərarvermə proseslərinə inteqrasiyası məhdud səviyyədədir** (3 şirkət). Az sayda şirkət bu amilləri strategiyasına inteqrasiya etdiyini bildirsə də, əksər şirkətlər bu prosesin ya başlanğıc mərhələsində olduğunu qeyd edib. Qərarvermə proseslərinə gəldikdə, ESİ faktorları əsasən sığorta məhsullarının yaradılması sahəsində nəzərə alınıb. Bu nəticələr sektorun ESİ prinsiplərini daha geniş miqyasda tətbiq etməsi üçün əlavə tədbirlərə ehtiyac olduğunu göstərir (Qrafik 13).

**Qrafik 13. ESİ amilləri sığorta şirkətlərinin uzunmüddətli biznes strategiyasına inteqrasiya edilməsi**




**Sığorta sektorunda ətraf mühit və sosial məsələlərlə bağlı beynəlxalq təşkilatlarla əməkdaşlıq geniş yayılmayıb**. Şirkətlərin yalnız 13%-i beynəlxalq təşkilatlar tərəfindən təşkil edilən təlimlərdə iştirak etdiyini, 19%-i isə məsləhət xidmətlərindən faydalandığını qeyd edib. Bu nəticələr sektorda beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsinin genişləndirilməsi zərurətini göstərir.

**Sığorta şirkətlərinin resurslardan səmərəli istifadə ilə bağlı strategiyalarında kağız istifadəsinə qənaət ən çox qeyd olunan istiqamət olub (15 şirkət).** Bundan əlavə, 6 şirkət enerji və su ehtiyatlarına qənaəti də öncül hədəflər kimi müəyyən etmişdir. Yalnız bir şirkət resurs səmərəliliyi üzrə hər hansı hədəf müəyyən etmədiyini bildirib.

## 3.2 Korporativ idarəetmə üzrə

**Sığorta sektoru üzrə ESİ faktorlarının korporativ idarəetməyə inteqrasiyası da məhdud səviyyədədir**. Direktorlar Şurası (DŞ) tərəfindən dayanıqlı maliyyə investisiyaları və risklərin idarə edilməsi üzrə vəzifə və səlahiyyət bölgüsü yalnız 2 şirkətdə həyata keçirilib. Bundan əlavə, 5 şirkət DŞ-nin üzvlərindən ən azı birinin ESİ riskləri və imkanları ilə bağlı təlimdə iştirak etdiyini qeyd edib. Yalnız 2 şirkət İdarə Heyəti səviyyəsində dayanıqlı maliyyə məsələlərinə cavabdeh şəxs təyin edib. (Qrafik 14).

**Qrafik 14. Sığorta sektorunda dayanıqlı maliyyə ilə bağlı idarəetmə çərçivəsi**




**Sığorta sektorunda gender müxtəlifliyinin təmin edilməsi ilə bağlı müəyyən müsbət göstəricilər müşahidə olunur**. Qadınlar ümumi işçi heyətinin 43%-ni, son 12 ayda işə qəbul olunanların isə 47%-ni təşkil edir ki, bu da sektorda gender bərabərliyinin nəzərə alınması ilə bağlı müsbət trend hesab olunur. Həmçinin, departament və şöbə rəhbərləri səviyyəsində qadınların təmsilçiliyi 31%, DŞ və İH-də isə müvafiq olaraq 14% və 23% təşkil etməsi maliyyə sektorunun digər seqmentləri ilə müqayisədə daha qənaətbəxş göstərici hesab edilə bilər (Qrafik 15).

**Qrafik 15**. **Sığorta sektorunda müxtəlif idarəetmə səviyyələrində qadın əməkdaşların payı**



### 3.3 Risk idarəetməsi üzrə

**Sığorta sektoru ESİ risklərinin əhəmiyyətini orta səviyyədə qiymətləndirib.** Sorğu nəticələrinə əsasən, sığorta şirkətlərinin yalnız 19%-i iqlim dəyişmələri və ESİ risklərinin Azərbaycan maliyyə bazarlarında yüksək əhəmiyyət kəsb etdiyini qeyd edib. 60%-dən çox şirkət isə bu riskləri orta əhəmiyyətli hesab edib (Qrafik 16).

**Qrafik 16. Sığorta şirkətləri tərəfindən ESİ risklərinin qiymətləndirilməsi**




Risklərin təsirlərinə gəldikdə, qısamüddətli dövrdə (1 il) sığorta sektorunun 54%-i bu riskləri aşağı səviyyəli, 46%-i isə orta səviyyəli təsirə malik hesab edib. Uzunmüddətli dövrdə (3 ildən artıq) isə risklərin daha ciddi olduğu bildirilib. Belə ki, şirkətlərin 46%-i bu təsirləri yüksək səviyyəli kimi qiymətləndirib.

**Sığorta sektorunda ESİ risklərinin idarə edilməsinə dair daxili sənədlərin hazırlanması, risk iştahası limitlərinin müəyyən olunması və bu risklərin biznes qərarvermə proseslərinə və stres-testlərə inteqrasiyası, həmçinin ESİ riskləri ilə bağlı daxili hesabatlılığın qurulması ilkin mərhələdədir.** Yalnız 1 şirkət ESİ risklərinin idarə edilməsi üzrə təlimat, monitorinq şablonu və əsas dayanıqlılıq hədəfləri hazırladığını qeyd edib (Qrafik 17). 2 şirkət risklərə məruz qalan sektorları müəyyən edib. Bu göstəricilər sığorta sektorunun ESİ risklərinin idarə edilməsi və strukturlaşdırılmış yanaşmaların tətbiqi sahəsində inkişaf potensialının geniş olduğunu göstərir.

**Qrafik 17. ESİ risklərinin biznes qərarverməsinə inteqrasiyası məqsədilə müvafiq təlimlərin və ya alətlərin hazırlanması**




### 3.4 Hesabatlılıq üzrə

**Sığorta sektorunda dayanıqlılıqla bağlı strategiya, risklər, imkanlar və əlaqəli məlumatların açıqlanması sahəsində məhdudiyyətlər mövcuddur.** 14 sığorta şirkəti bu məlumatları heç bir formada açıqlamadığını qeyd edib. Yalnız 2 şirkət bu məlumatları MŞ ilə məhdud formada paylaşdığını bildirib, ictimaiyyətə açıqlanan ayrıca dayanıqlı maliyyə/ESİ hesabatı və ya illik maliyyə hesabatına inteqrasiya olunmuş formada məlumatın açıqlanmasına rast gəlinməyib (Qrafik 18).

**Qrafik 18. ESİ ilə bağlı strategiya, risklər, imkanlar və əlaqəli məlumatların açıqlanması**



Karbon emissiyalarının açıqlanmasına gəldikdə isə, şirkətlərin böyük əksəriyyəti (15 şirkət) bu məlumatları ölçmədiyini qeyd edib. Yalnız 1 şirkət yaxın gələcəkdə bu istiqamətdə işlərin aparılmasının planlaşdırdığını bildirib.

# 4. Kapital bazarı

## 4.1 Biznes strategiyası üzrə

İnvestisiya şirkətlərinin **böyük əksəriyyəti ESİ amillərini uzun uzunmüddətli biznes strategiyasına inteqrasiya etməyib.** Şirkətlər dayanıqlı maliyyə və ESİ prinsiplərinin fəaliyyətlərinə inteqrasiya edilməsinin qarşısında duran əsas maneələr kimi kifayət qədər məlumatlılığın olmaması, dayanıqlı maliyyə məhsul və xidmətlərinə tələbin olmaması və bu istiqamətdə yetərli kadr potensialının olmamasını qeyd edib (Qrafik 19).

**Qrafik 19. Dayanıqlı maliyyənin tətbiqi üzrə investisiya şirkətləri tərəfindən bildirilən əsas maneələr**




**İnvestisiya şirkətlərinin yarısından çoxu ESİ amillərini qərarvermə prosesinə inteqrasiya etməyib.** ESİ prinsiplərini inteqrasiya edən şirkətlərin əksəriyyəti investisiya məhsullarının yaradılması sahəsində tədbirlər görüb. Bununla yanaşı, təhlil zamanı yalnız 1 investisiya şirkətinin karbon emissiyasının azaldılmasına yönəlmiş maliyyə məhsulu təqdim etdiyi müəyyən edilib. Həmçinin sorğu dövründə investisiya şirkətləri tərəfindən dayanıqlı məhsullar üçün hər hansı stimullaşdırıcı differensiasiyanın tətbiq olunmadığı məlum olur.

**Nəticələr investisiya şirkətlərinin beynəlxalq təşkilatlarla əməkdaşlığının ümumilikdə məhdud olduğunu və bu sahədə təşəbbüslərə ehtiyac duyulduğunu göstərir.** İnvestisiya şirkətlərindən yalnız 2-si təlim və vəsaitlərin cəlbi istiqamətlərində beynəlxalq təşkilatlarla əməkdaşlıq etdiyini qeyd edib.

**İnvestisiya şirkətlərinin təqribən yarısı fəaliyyəti zamanı resurslara qənaət tədbirləri həyata keçirdiyini qeyd edib.** Resurs səmərəliliyi həyata keçirdiyini qeyd edən şirkətlər fəaliyyətlərinin əsasən kağız israfının azaldılmasına yönəldiyini, lakin su və enerji qənaəti sahəsində məhdud tədbirlər gördüklərini bildirib.

## 4.2 Korporativ idarəetmə üzrə

**İnvestisiya şirkətləri ESİ faktorlarının korporativ idarəetməyə inteqrasiyası baxımından məhdud inkişaf səviyyəsindədir.** 5 şirkətdə İH səviyyəsində ESİ məsələləri üzrə cavabdeh şəxs, 1 şirkətdə müxtəlif şöbələrin əməkdaşlarından ibarət işçi qrup yaradılıb (Qrafik 20). Cəmi 1 şirkət MŞ səviyyəsində yaşıl, sosial və digər dayanıqlı maliyyə investisiyalarının həyata keçirilməsi üçün vəzifə, səlahiyyət və məsuliyyət bölgüsünü müəyyən edib. Bu göstəricilər təşkilatların böyük əksəriyyətində dayanıqlı maliyyə investisiyalarına yönəlik idarəetmə mexanizmlərinin hələ tam qurulmadığını göstərir. Həmçinin, MŞ səviyyəsində məsuliyyət bölgüsünün olmaması, dayanıqlılıqla bağlı qərarların sistematik şəkildə qəbul edilmədiyini və ya bu sahədə korporativ idarəetmənin zəif olduğunu göstərir.

**Qrafik 20. İnvestisiya şirkətlərində dayanıqlı maliyyə ilə bağlı idarəetmə çərçivəsi**



**İnvestisiya şirkətlərinin gender müxtəlifliyinin təmin olunması üzrə göstəriciləri ümumi sektor göstəricilərinə yaxındır.** Hal-hazırda qadınlar ümumi işçi qüvvəsinin 44%-ni, ötən il yeni işəgötürülənlərin isə 32%-ni qadınlar təşkil edir. Bununla belə, qadınların rəhbər vəzifələrdə təmsil olunması üzrə faiz göstəriciləri daha aşağıdır. Belə ki, qadınlar şöbə və departament müdirləri kimi vəzifələrin 25%-ni tutsalar da, idarəetmənin yüksək səviyyələrində bu rəqəmlər daha da azalır. MŞ və İH vəzifələri üzrə qadınların təmsilçiliyi müvafiq olaraq  4% və 12% təşkil edir (Qrafik 21).

**Qrafik 21. İnvestisiya sektorunda müxtəlif idarəetmə səviyyələrində qadın əməkdaşların payı**




### 4.3 Risk idarəetməsi üzrə

**İnvestisiya şirkətlərinin 67%-i ESİ risklərinin idarə edilməsinin əhəmiyyətini orta səviyyədə qiymətləndirir** (Qrafik 22). Kapital bazarı iştirakçıları əksəriyyəti qısa müddətli dövrdə iqlim dəyişmələrinin və ESİ risklərinin təsirinin aşağı, lakin orta və uzun müddətdə isə müvafiq risklərin orta və yüksək səviyyədə olacağını bildiriblər.

**Qrafik 22.** İqlim dəyişmələri və ESİ risklərinin idarəedilməsinin əhəmiyyəti




**Ümumilikdə, investisiya şirkətlərində iqlim dəyişikliyi ilə bağlı risklərin müəyyənləşdirilməsi səviyyəsi aşağıdır**. Qeyd edək ki, investisiya şirkətlərinin 80%-dən çoxu iqlim dəyişikliyi ilə bağlı riskləri müəyyən etmək üçün tədbirər həyata keçirməyib. Yalnız bir şirkət iqlim dəyişmələri və ESİ risklərinin biznes qərarverməsinə inteqrasiyası məqsədilə müvafiq təlimat xarakterli tədbir hazırladığını qeyd edib. Bu nəticələr investisiya şirkətləri tərəfindən ESİ risklərinin idarə edilməsi sahəsində müvafiq təkmilləşdirmə işlərinin zəruriliyini ortaya qoyur.

### 4.4 Hesabatlılıq üzrə

Sorğunun dayanıqlılıqla bağlı strategiya, risklər, imkanlar və əlaqəli məlumatların açıqlanması hissəsinə görə investisiya şirkətlərində məhdudiyyətlərin olduğunu qeyd etmək olar. Belə ki, şirkətlərdən 8-i bu məlumatları heç bir formada təmin etmədiyini bildirib. 3 şirkət bu məlumatların MŞ ilə paylaşdığını bildirib. İctimaiyyətə açıqlanan ayrıca dayanıqlı maliyyə/ESİ hesabatı və ya illik maliyyə hesabatına inteqrasiya olunmuş formada məlumat açıqlayan sadəcə 1 investisiya şirkəti olub (Qrafik 23).

**Qrafik 23. ESİ ilə bağlı strategiya, risklər, imkanlar və əlaqəli məlumatların açıqlanması**




Son olaraq karbon emissiyalarının açıqlanmasına gəldikdə isə yalnız 3 şirkət yaxın gələcəkdə bu istiqamətdə işlərin planlaşdırıldığını bildirib.

Nəticələr bir daha göstərir ki, investisiya şirkətlərində ESİ prinsiplərinin tətbiqi digər maliyyə institutları ilə müqayisədə daha məhduddur və müvafiq istiqamətlərdə inkişafın təmin edilməsi məqsədilə növbəti illərdə tədbirlərin həyata keçirilməsi zəruridir.

## 5. Nəticə və prioritetlər

Sorğunun nəticələri maliyyə institutlarında ESİ və dayanıqlılıq göstəricilərini artırmaq üçün daha geniş təşəbbüslərə ehtiyac olduğunu göstərir. Mövcud əsaslanaraq ölkədə dayanıqlı maliyyənin inkişafında irəliləyişə nail olmaq üçün Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsinə uyğun olaraq təşəbbüslər davam etdiriləcəkdir. Bu təşəbbüslər ən azı aşağıdakı istiqamətləri əhatə edəcəkdir:

### 5.1 Biznes strategiyası üzrə:

- **ESİ üzrə siyasət çərçivəsinin gücləndirilməsi:** Maliyyə institutları tərəfindən Dayanıqlı maliyyə və ESİ prinsiplərinin risklərinin idarə edilməsi üçün formal daxili siyasətlərin hazırlanması və bütövlükdə Mərkəzi Bankın 2023-2026-cı illəri əhatə edən “Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi”-nə uyğunlaşma ilə bağlı planın tərtib edilməsi və icrası vacib hesab edilir.
- **ESİ üzrə hədəflərin müəyyən edilməsi:** Maliyyə institutları İQ-nin azaldılması və resursların səmərəliliyi üçün hədəflər müəyyən etməlidir.
- **Sosial təsir üçün innovativ mexanizmlərin tətbiqi:** KOB-a yönəldilmiş kreditləşmə və hibrid avtomobil kreditləri kimi dayanıqlı və inklüziv maliyyə məhsullarının genişləndirilməsi zəruridir.
- **Əməkdaşların inkişafına investisiya edilməsi:** ESİ ilə əlaqəli bacarıqlar üzrə daxili və xarici təlim imkanlarının təmin edilməsi innovasiyaları təşviq edə və işçiləri dayanıqlı maliyyənin tətbiqinə hazırlığını artıra bilər. Maliyyə institutlarınn BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri və digər beynəlxalq dayanıqlılıq təşəbbüslərində iştirak etməsi vacibdir.
- **Məlumatlılığın artırılması:** ESİ prinsiplərinin başa düşülməsini və onların biznes əməliyyatlarına uyğunluğunu təşviq etmək üçün təşəbbüslər dayanıqlılığın korporativ mədəniyyətə daxil edilməsinə kömək edə bilər
- **Yaşıl maliyyə məhsullarının təşviq edilməsi:** Yaşıl kreditlər, yaşıl sığorta, dayanıqlılıqla əlaqəli maliyyə alətləri üzrə təkliflərin genişləndirilməsi yaşıl və dayanıqlı layihələrə tələbi stimullaşdıra bilər.

### 5.2 Korporativ idarəetmə üzrə:

- **ESİ üzrə idarəetmə potensialının gücləndirilməsi:** Maliyyə institutlarının dayanıqlılıq məsələlərinin orta və yüksək idarəetmə çərçivəsinə inteqrasiyası və bu ESİ üzrə cavabdeh daxili strukturun formalaşdırılması zəruridir. Bundan savayı, idarəetmə orqanlarında müstəqil üzvlərin təmsil olunması və gender bərabərliyi siyasətləri də daxil olmaqla, aydın idarəetmə çərçivələri də təşviq edilməlidir.
- **Gender bərabərliyinin təşviq edilməsi:** Maliyyə institutları idarəedici rollarda gender bərabərliyini gücləndirməli, əməkdaşların rifahını və ümumi qayğını dəstəkləmək üçün sosial proqramların tətbiqini genişləndirməlidir.
- **Təşviq mexanizmlərinin ESİ məqsədləri ilə uyğunlaşdırılması:** Maliyyə mükafatları ilə yanaşı, tanınma və karyera yüksəlişi imkanları kimi qeyri-maliyyə stimullarının daxil edilməsi işçiləri dayanıqlılığı prioritetləşdirməyə həvəsləndirə bilər.

### 5.3 Risk idarəetməsi üzrə:

- **İqlim riskinin idarə edilməsi, ssenari təhlili və stres-test çərçivəsinə daxil edilməsi:** İqlim riskinin qiymətləndirilməsi metodologiyalarının işlənib hazırlanması və onların qərar qəbuletmə prosesinə inteqrasiyası zəruridir.

### 5.4 Hesabatlılıq üzrə:

- **Məlumatların açıqlanmasının genişləndirilməsi:** Maliyyə institutları sektora olan etimadı gücləndirmək, investorları cəlb etmək və qlobal dayanıqlılıq standartlarına uyğunlaşmaq üçün vacib olan ESİ strategiyalarının, Əsas fəaliyyət göstəricilərinin və nailiyyətlərin ictimaiyyətə açıqlanmasını təmin etməlidir.
- **ESİ üzrə fəaliyyətin qiymətləndirilməsi:** Daxili ESİ performansının qiymətləndirilməsi sistemlərinin yaradılması maliyyə institutlarının müvafiq sahədə inkişafı izləməsi, riskləri effektiv şəkildə idarə etməsi və hesabatlılığı artırması baxımından vacib hesab edilir.